**“PAŞA Bank” ASC-nin İdarə Heyətinin 09.01.2024-cü il tarixli, 7 nömrəli Qərarı və Müşahidə Şurasının 10.01.2024-cü il tarixli, 2 nömrəli Qərarı ilə təsdiq edilmiş Maraqların Toqquşması və Maraqların Bəyan Edilməsi Siyasətindən qısa çıxarış**

## Maraqların toqquşması nədir?

Maraqların toqquşması - bir işçinin xidməti vəzifəsi ilə bu vəzifə səlahiyyətlərinin yerinə yetirilməsinə təsir edən şəxsi maraqları arasındakı münaqişəni özündə ehtiva edir. Maraqların toqquşması halları vaxtında müəyyən edilmədikdə və ya düzgün idarə edilmədikdə, Bankın səmərəli fəaliyyəti ciddi şəkildə təhlükəyə atıla bilər, eləcə də bankın işçiləri və müştəriləri üçün digər arzuolunmaz nəticələrə səbəb ola bilər. İşçi, Bankda işlədiyi müddətdə maraq toqquşmaları ilə üzləşə bilər, bu da öz növbəsində güzəştə getməyə, şəxsi mənafeyi üçün peşəkar qərarlarının qeyri-obyektivliyinə və qərəzliliyinə gətirib çıxara bilər və ya işçinin Bankın qarşısında olan vəzifə və öhdəliklərinin lazımı şəkildə yerinə yetirilməsinə başqa formada mane ola bilər. Maraqların toqquşmasını düzgün müəyyən edə bilməmək və lazımi şəkildə idarə etməmək Bankın müştəriləri və onun işçiləri üçün məqsədəuyğun olmayan və ya mənfi nəticələrə gətirib çıxara bilər.

## “Maraqların toqquşması və maraqların bəyan edilməsi siyasəti”nin məqsədi

“Maraqların toqquşması və maraqların bəyan edilməsi siyasəti” (bundan sonra Siyasət) “PAŞA Bank” ASC-nin (bundan sonra Bank) rəhbərliyinə potensial maraq toqquşmalarına səbəb ola biləcək halların müəyyənləşdirilməsi üçün yardım etmək və bütün maraq toqquşmalarının idarə edilməsi və bəyan edilməsi üçün təlimat vermək, həmçinin müştərilər və tərəfdaşlar qarşısında Bankın etimadını artırmaq, ədalətli müştəri xidmətini təmin etmək, şəffaflıq və uzaqgörənlik prinsiplərinə əsaslanan yüksək korporativ idarəetmə standartlarına riayət etmək məqsədilə hazırlanmışdır.

Siyasət Bankda yarana biləcək maraq toqquşmalarının nümunələrini təqdim edir və bu toqquşmaların idarə edilməsi üçün görüləcək tədbirlər üzrə minimum standartları müəyyən edir.

Bankın İdarə Heyəti, bu sənəddəki bütün müddəaların Bankda mövcud işçilər üzrə maraq toqquşması hallarını tənzimləyən digər bankdaxili sənədlərdə öz əksini tapmasını təmin etməlidir.

Hazırkı Siyasət Bankın bütün işçilərinə və bütün sahələrinə, həmçinin Bankın işinə əhəmiyyətli dərəcədə təsir edə bilən əlaqədar hüquqi şəxslərlə münasibətdə Bank işçilərinin hərəkətlərinə şamil olunur.

## Ümumi müddəalardan çıxarış:

Bank öz gündəlik iş fəaliyyətində faktiki və ya güman edilən maraq toqquşmaları ilə üzləşə bilər. Maraqların toqquşması Bankın xeyrinə davranmaq və vəzifə öhdəliyini yerinə yetirməyin əksinə olaraq, münasibətlərdən, statusdan və səlahiyyətlərdən şəxsi mənafe üçün istifadə edildiyi hallarda yaranır. İşçinin Bankı təmsil etmək məsuliyyəti olduğu üçün, öz vəzifəsini icra edən zaman,

peşəkar öhdəliklər və şəxsi maraqlar arasında qarşıdurma yarana bilər və bu zaman işçilər tərəfindən aşağıda qeyd olunanlar nəzərə alınmalıdır:

▪ Şəxsi maraqların Bankın maraqlarından üstün tutulmasına yol verilməməlidir.

▪ Vəzifə səlahiyyətindən və Bankın məhsul və xidmətləri barədə məlumatlardan Bankın əleyhinə

olaraq şəxsi mənfəət üçün istifadə edilməməlidir.

▪ Bankın adından və ya işgüzar nüfuzundan istifadə edərək şəxsi maraq və mənafedə üstünlük

əldə edilməsinə yol verilməməlidir.

▪ Şəxsi münasibət və qohumluq əlaqələri olan işçilər arasında iş mühiti zamanı hər hansısa üstünlük və ya ayrıseçkilik edilməməlidir.

▪ Əmək fəaliyyəti göstərdiyi müddət ərzində və əmək münasibətlərinə xitam verildikdən sonra belə kənar fəaliyyət zamanı haqsız üstünlük və fayda əldə etmək məqsədilə Bankda əmək fəaliyyəti nəticəsində əldə edilən məlumatlardan sui-istifadə hallarına yol verilməməlidir.

▪ Rəhbər şəxslər vəzifə səlahiyyətindən istifadə edərək özləri ilə bağlı benefitlərin təsdiqlənmə və icrası (müqavilə, köçürmə, illik KPİ-da təsdiq və s.) prosesində iştirak etməməlidirlər.

Bank hər zaman bu cür maraq toqquşmalarını davamlı və ədalətli şəkildə idarə etməlidir.

**<u>Məsul struktur bölmənin öhdəlikləri:</u>**

Bankın Komplayens şöbəsi faktiki və potensial Maraqların Toqquşması hallarının müəyyənləşdirilməsinə və nəzarətinə cavabdehdir. Məsul şöbə Bankın fəaliyyəti zamanı meydana çıxa biləcək Maraq Toqquşması hallarının müəyyənləşdirilməsi və idarə olunması üzrə cavabdehdir.